UOT 94; 327
DOI:10.30546/3006-0346.2024.5.83.036

# RUSİYA-UKRAYNA MÜHARİBƏSİNDƏ AZƏRBAYCAN VƏ TÜRKİYƏ RESPUBLİKALARININ SİYASİ STRATEGİYALARI

**RAUF QURBANOV**
*Bakı Dövlət Universitetinin*
*Slavyan ölkələri tarixi kafedrasının doktorantı*

*E-mail: qurbanovrauf7@gmail.com*
*ORCID KOD: 0009-0006-1959-4592*

## Giriş

1991-ci ildə Ukrayna öz müstəqilliyini elan etdikdən sonra Rusiya bu ərazini qərbə əlaqələr qurmaq üçün əhəmiyyətli körpü rolu olduğunu bilirdi. Eyni zamanda Ukraynanın NATO (Şimali Atlantika Müqaviləsi Təşkilatı) və Aİ (Avropa İttifaqı) ilə üzvlük niyyətini və ehtimalını Rusiyanın ərazi bütövlüyü üçün təhdid kimi görürdü. Rusiya-Ukrayna müharibəsinin təməli dərin köklərə söykənir. Ancaq məsələnin mahiyyətini anlamaq üçün yaxın keçmişdə baş verən proseslərə nəzər yetirmək mühüm əhəmiyyətə malikdir. Geosiyasi baxımdan Ukrayna Avropa üçün əhəmiyyətli bir ölkədir. Şimal-qərbdə Belarus, qərbdə Polşa, Slovakiya və Macarıstan, cənub-qərbdə Rumıniya və Moldova, cənub-şərqdə və cənubda Qara dəniz və Azov dənizi, şimal-şərqdə və şərqdə Rusiya ilə həmsərhəddir. Ukrayna ərazisinə görə Avropada Rusiyadan sonra ikinci ən böyük ölkədir. O, həm də geosiyasət baxımından Avropanın önəmli ölkələrindən biridir. 2013-cü ildə dönəmin Ukrayna prezidenti olan Viktor Yanukoviçin Aİ ilə əlaqədar olan razılıq sənədini son anda imzalamaqdan imtina etməsi 2004-cü ildə "Narıncı inqilab" adı ilə adlanan inqilabı həyata keçirən qərb tərəfdarlarını hərəkətə keçirmiş və etirazlar başlamışdı. 2014-cü ildə Ukraynadaki kütləvi nümayişləri çevriliş kimi qiymətləndirərək, Krım ruslarının həyat təhlükəsizliyini əsas gətirərək Krımı ilhaq etdi. Ukrayna ilə müharibənin səbəbi olaraq həm Rusiya Federasiyası Prezidenti həm də rus dövlət adamları NATO-nun genişlənmə siyasət olduğunu demişdir. 2014-2022-ci illərdə xüsusilə Donbas və Luqanskdaki separatçı ruspərəst qüvvələrin iğtişaşları Ukraynanın bura sərt müdaxiləsi ilə nəticələndi. 2022-ci ildə Rusiya hərbi təlim adı ilə şərq sərhədlərinə hərbi dəstələr topladı. Bunun nəticəsi idi ki, Rusiya Donbas və Luqanskı işğal etdi və 21 fevral 2022-ci ildə bu torpaqları müstəqil respublika kimi tanıdı. Bu müharibə beynəlxalq müstəvidə də böyük təsirlər doğurdu. 2022-ci il martın 2-də BMT Baş Assambleyası 141 "hə" səsi ilə Rusiyanın təcavüzünü pisləyən qətnamə qəbul etdi. 2022-ci il oktyabrın 12-də Baş Assambleya səs çoxluğu ilə Rusiyanın işğal etdiyi dörd bölgəni tanınmaması barədə qərar qəbul edib və 14 noyabr 2022-ci ildə Rusiyanın Ukraynaya müharibə təzminatı ödəməsini tələb edən qətnamə qəbul etdi [6]. Rusiya ilə Ukrayna arasında gedən proseslər nəticəsində Rusiya ilə Avropa arasında siyasət, təhlükəsizlik və enerji sahələrində qeyri-stabillik yarandı. Mövcud müharibə nəticəsində enerji təchizatı və tələbatında kəsintilər və problemlər yarandı. Bu səbəbdən Avropa İttifaqı Xəzər təbii qazına çıxış və Rusiya qazına alternativ istehsal etmək üçün səy göstərməyə başladı. Bu dayanıqlı enerji təchizatını təmin etmək məqsədi daşıyır. Məhz burada Azərbaycanın Avropa üçün əhəmiyyəti olduqca artır. Həmçinin Türkiyənin geostrateji mövqeyinin əhəmiyyəti də ortaya çıxır, çünki Türkiyə bu alternativ xətlərin keçə biləcəyi ən mühüm ölkədir. Rusiya ilə Ukrayna arasındakı müharibənin digər nəticəsi regionda bir sıra gözlənilməz siyasi hadisələrə səbəb olmasıdır. Bu hadisələrdən biri İsveç və Finlandiya NATO-nun üzvlüyünə, Moldova, Gürcüstan və Ukrayna Aİ-yə tam üzvlük üçün müraciət etdilər. Buna uyğun olaraq 4 aprel 2023-cü ildə Finlandiya, 7 mart 2024-cü ildə isə İsveç NATO-ya üzv oldu. Rusiya-Ukrayna müharibəsinə ABŞ və Aİ-nin baxış bucağını təhlil etmək vacibdir. Rusiya-Ukrayna müharibəsinin başlamasından sonra Bayden 2022-ci il aprelin 28-də Konqresə Ukraynaya əlavə maliyyə vəsaitinin ayrılması ilə bağlı bəyanat verdi. Bayden bəyanatında NATO müttəfiqləri və avropalı tərəfdaşlarına da üz tutub və ABŞ-ın Ukraynaya maliyyə dəstəyi üçün təşəbbüslərə rəhbərlik etməsinin vacibliyini vurğulayıb. Baydenin çıxışları təhlil edildikdə, onların prinsipcə, iki məqam ön plana çıxır. Birincisi, müttəfiqlərlə birgə səylərin xüsusi vurğulanması, ikincisi, ABŞ-nin müharibədəki problemlərlə bağlı beynəlxalq səylərə rəhbərlik etməsinin zəruriliyidir. 2014-cü ildə Rusiyanın Krımı işğal etməsinə ABŞ və Aİ-nin sərt reaksiya verməməsinin digər səbəbi də reaksiyanın təkcə Rusiyaya deyil, həm də beynəlxalq sistemə ziyan vuracağı düşüncəsi olduğunu demək olar. Rusiyaya qarşı hərtərəfli müdaxilənin və alınacaq tədbirlərin, xüsusilə də iqtisadi sanksiyaların qlobal sistemə mənfi təsirlərini 2022-ci il Rusiya-Ukrayna müharibəsindən sonra daha aydın göründü. Rusiyaya qarşı sanksiyaların enerji qiymətlərini artırdığını, beynəlxalq bazarda problemlər yaratdığını, inflyasiya və artıma əhəmiyyətli dərə-

cədə təsir göstərəcəyini vurğulamaq olar. ABŞ və Aİ-nin strateji düşüncəsini formalaşdıran ekspertlər bu göstəriciləri əvvəlcədən düşünmüşlər. Bu səbəbdən Qərb Bloku liderlərinin 2014-cü ildə Rusiyanın Krımı işğal etməsini regional hadisə kimi qiymətləndirdiklərini və bütün dünyaya təsir edə biləcək reaksiyanın nəticələrini nəzərə alaraq hərəkət etdiklərini demək olar. Lakin Rusiyanın bütün Ukraynaya qarşı işğal cəhdi Avropanın oyanmasına səbəb oldu. Bu hücumların Ukrayna coğrafiyası ilə məhdudlaşmayacağı və Avropanın təhlükəsizliyinin Rusiya tərəfindən açıq təhdidlərə məruz qaldığı daha aydın oldu. Bu anlayış dəyişikliyinin Rusiyaya qarşı reaksiyanın daha da artmasında mühüm rol oynadı. Avropalı siyasətçilərin açıqlamalarında da bu anlayış dəyişikliyinin izlərini görmək mümkündür. Rusiya-Ukrayna müharibəsinin yaratdığı geosiyasi dəyişmə ilə dünyada yeni siyasi vəziyyət yaratdı. Avropanın birləşdiyi, NATO-nun öz təsirini və əhatə dairəsini artırma səyləri ilə məşğul olduğu, Qərb ittifaqının canlandığı və artan neft və qaz qiymətlərinin bərpa olunan enerji investisiyalarına baxmayaraq, qalıq yanacaqların əhəmiyyətini ortaya qoyduğu bir dövrə qədəm qoyuruq. Həmçinin ABŞ-ın Körfəz ölkələri ilə münasibətlərinə yenidən nəzərdən keçirməyə çalışması və Aİ-nin Körfəz ölkələri ilə strateji tərəfdaşlıq qurmaq istəməsi nəzərəçarpacaq amil kimi qiymətləndirilir.

Ukraynanın Rusiya üçün əhəmiyyətini dörd əsas prizmadan qiymətləndirmək olar. Ukrayna Rusiya üçün strateji dərinlik və düşmən hücumlarına qarşı tarixən özünü müdafiə etmək qabiliyyətini təmin edən bufer zonası kimi hesab edir. O, həmçinin qazla zəngin Rusiya ilə enerji istehlak edən Avropa İttifaqı arasında mədəni vasitəçi rolunu oynayır və dənizlərə əlavə çıxış, körpü rolunu təmin edirdi. Geoiqtisadi nöqteyi-nəzərdən Rusiya Ukrayna ərazisini Rusiyanın təbii qaz kimi enerji resurslarının Qərbə daşınması çox vacib hesab edir, çünki bu strateji resursların böyük əksəriyyəti yerli bazarlara və enerji tələb edən Avropa bazarına çıxmaq üçün Ukrayna ərazisindən keçməlidir. Ukraynanın Avropa İttifaqına daxil olması Putinin rəhbərlik etdiyi Avrasiya İqtisadi İttifaqı layihəsinin uğuruna təhlükə yaradan amillərdən biri idi. Digər tərəfdən, Ukrayna ABŞ və Qərbi təmsil edən Avropa Birliyi və Rusiyanın təmsil etdiyi Şərq gücləri arasında qarşıdurmanın qarşısını alan geosiyasi ayrılıq divarı formalaşdırırdı.

**Əsas hissə**

Azərbaycan Respublikası Rusiya-Ukrayna müharibəsində balanslaşdırılmış xarici siyasət aparır. Azərbaycan Rusiya ilə enerji əlaqələrini saxlamaqla yanaşı, Ukraynaya da dəstəyini ifadə edib. Azərbaycan münaqişə tərəflərini sülh həll yolunu tapmağa çağırıb və diqqətini regionda sabitliyin qorunmasına yönəldib. Bu münasibət Azərbaycanın regional aktor kimi rolunu gücləndirir və beynəlxalq aləmdə nüfuzunu artırır. Rusiya-Ukrayna müharibəsi beynəlxalq ictimaiyyətdə geniş diqqət cəlb etdi və bir çox ölkələrin xarici siyasət strategiyalarına təsir etdi. Azərbaycan Ukraynada müharibə nəticəsində baş verən zərərin aradan qaldırılması üçün dövlət səviyyəsində müəyyən tədbirlər görmüşdür. 2023-cü il 17 iyul tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Ukraynaya humanitar yardım göstərilməsi üçün 7,6 milyon ABŞ dollarının manat ekvivalentində vəsait ayrılmışdır [14]. Nazirlər Kabinetinin 2023-cü il üzrə fəaliyyəti haqqında hesabatında qeyd olunmuşdur ki, 2023-cü ildə Azərbaycan Ukraynaya ümumilikdə 28 milyon manat dəyərində humanitar, yenidənqurma və bərpa işləri üçün yardım etmişdir. Ümumilikdə isə Azərbaycan 57 milyon manatdan artıq yardım göstərmişdir. Azərbaycan həmişə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına və prinsiplərinə sadiq qalaraq Ukraynanın ərazi bütövlüyü və suverenliyinə hörmət etdiyini istər ikili görüşlərdə, istərsə də beynəlxalq görüşlərdə bildirmişdir. Rusiya-Ukrayna müharibəsindən sonra Azərbaycanın regionda və beynəlxalq aləmdə rolunun böyük olduğu bir daha öz təsdiqini tapmışdır. Avropa enerji mənbələrinə və Rusiyaya olan asılılığını azaltmaq üçün Şərq-Qərb tranzit marşutlarına ehtiyac olduğu üçün beynəlxalq aləmdəki önəmi daha da artmışdır. Rusiya isə Qərbin sanksiyalarından yan keçmək üçün Azərbaycan ərazisində olan Şimal-Cənub tranzit marşrutlarına daha çox ehtiyac duyur. Enerji böhranı ilə mübarizə aparan Avropa Birliyi ölkələri enerjiyə qənaət etməyə və qaz ehtiyatlarını doldurmağa diqqət yetirir. Aİ ölkələri Rusiya təbii qazından asılılığını azaltmağı hədəfləsələr də, hazırda qaz ehtiyatını bərpa etmək və enerji təchizatını saxlamaq üçün Rusiyadan təbii qaz almağa davam etməlidirlər. Bu kontekstdə enerji təhlükəsizliyini təmin etmək üçün Rusiya təbii qazından asılılığın azaldılması və alternativ təchizat mənbələrinin müxtəlifləşdirilməsi istiqamətində müxtəlif addımlar atılır. Bu strategiyalara uyğun olaraq, onlar Azərbaycan, Əlcəzair və Norveç kimi ölkələrdən təbii qaz alışını artıraraq enerji təchizatını genişləndirməyi hədəfləyirlər. Bu addımlar Aİ-nin enerji təchizatının təhlükəsizliyini artırmaq və enerji böhranlarına qarşı daha dayanıqlı struktur yaratmaq məqsədi [2 səh,4] daşıyır. Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində

əməkdaşlıq iqtisadi əlaqələrə də müsbət təsir göstərir. Enerji ticarəti hər iki tərəfin, Avropa İttifaqının iqtisadiyyatına töhfə verir, ölkələr Azərbaycanda enerji layihələrinə investisiya qoymaqla bu sektorun inkişafına dəstək verir. Enerji həm də Azərbaycan və Aİ arasında münasibətlərin siyasi və strateji ölçüsünə təsir göstərir. Enerji ticarəti və əməkdaşlığı Aİ-nin Asiya ölkələri ilə əlaqələri çərçivəsində tərəflər arasında daha sıx siyasi əlaqələrə təkan verir. və qarşılıqlı etimadı nisbətən artıra bilər [2 səh,5]. 2022-ci il iyulun 18-də Avropa Komissiyasının sədri Ursula von der Leyen Bakıda olub və Avropa İttifaqına enerji tədarükünün artırılması ilə bağlı danışıqlar aparıb, daha sonra isə Azərbaycanla 2027-ci ilə qədər təbii qaz idxalını iki dəfə artırmaq məqsədi ilə saziş imzalayıb. Bu saziş 15 il ərzində hər il ən azı 20 milyard kubmetr Azərbaycan təbii qazının idxalını nəzərdə tutur. Bu razılaşma Avropa İttifaqının Rusiya-Ukrayna müharibəsindən sonra enerji üçün alternativ təchizatçılar tapmaq üçün atdığı addımlardan biridir. Bakı ilə Avropa İttifaqı arasında saziş qazın Cənub Qaz Dəhlizi kəməri ilə bloka çatdırılmasını hədəfləyir. Avropa Komissiyasının sədri Ursula von der Leyen axının artırılması məqsədilə Bakıda keçirilən görüşdə Azərbaycanın bərpa olunan enerji, xüsusilə dəniz küləyi və yaşıl hidrogen sahəsində böyük potensiala malik olduğunu digər mühüm məsələ kimi vurğulayıb. Bu məsələdə Azərbaycan Prezidenti İlham Əliyevlə əməkdaşlığın əsasını qoyduqlarını deyən Avropa Komissiyasının sədri Azərbaycanın Avropa İttifaqı üçün yüksək etibarlı və aparıcı bərpa olunan enerji tərəfdaşına çevriləcəyini vurğulayıb [2 səh,3].

Rusiya-Ukrayna müharibəsi bir çox dünya ölkələrini iki hissəyə böldü. Bunlar Ukrayna tərəfdarları və ruspərəst düşüncə ilə fikirləşənlər idi. Ancaq demək lazımdır ki, bu hal Rusiyanın həmsərhəd ölkələrinə yaxınlaşdıqca məsələ daha da mürəkkəbləşdi. Çünki həmsərhəd ölkələrin Rusiya ilə tarix boyu siyasi, sosial-iqtisadi əlaqələri olmuş və bir çox regional və beynəlxalq müqavilələrə imza atılmışdı. Məhz bu səbəbdən bu proses zamanı Rusiyaya qarşı kəskin zidd mövqedə durmaq diplomatik cəhətdən konkret görünmür. Buna görə də Azərbaycan və Rusiyaya həmsərhəd olan və tarixi əlaqələri olan ölkələrin bəziləri balanslaşdırılmış xarici siyasət və diplomatiya həyata keçirdi. Azərbaycan bütün bəyanatlarında regionda və beynəlxalq aləmdə sülhün və beynəlxalq hüquq normalarının qorunması aspektdən çıxış edərək Ukraynanın topraq bütövlüyünə hörmət etdiyini bildirdi.

Rusiyanın Ukrayna ilə olan müharibəsi onun postsovet ölkələri ilə olan əlaqələrində yeni bir mərhələ açmasına gətirib çıxardı. Rusiya müharibə nəticəsində iqtisadi cəhətdən ağır sanksiyalara məruz qalan və iqtisadi cəhətdən çətin zamanlar keçirən bir dönəmə keçid etdi. Rusiya özünə qarşı qoyulmuş sanksiyalardan yayınmaq və iqtisadi gücünü yenidən bərpa etmək üçün postsovet ölkələri ilə əlaqələrini daha da artırdı. Xüsusi ilə sərhəd ölkələr ilə münasibətlərdə yeni bir mərhələyə keçdi. Azərbaycan Rusiyanın Ukrayna ilə olan müharibəsində balanslaşdırılmış xarici siyasət aparmağa davam etmişdir. Azərbaycan Rusiya ilə ticarət əməkdaşlığı davam etdirir. Eyni zamanda Ukraynada baş verən hadisələrə qarşı da öz humanitar yardımlarını həyata keçirir. Postsovet məkanında eləcə də qonşu ölkələr bu müharibədə kənar durmağa qərar versələr də Azərbaycan Ukraynaya minatəmizləyən maşınlar göndərmiş və öz dəstəyini davam etdirmişdir.

Türkiyənin Rusiya-Ukrayna müharibəsindəki siyasi rolunu və strategiyasını üç aspektdə dəyərləndirə bilərik. Birincisi, Ukraynanın torpaq bütövlüyü, ikincisi, Rusiya-Ukrayna müharibəsində sülh üçün vasitəçilik rolu, üçüncüsü isə bu dövrün sonu ilə əlaqədar olaraq NATO ölkəsi olmaq üçün müraciət edən yeni ölkələrə baxılmasıdır. Türkiyənin Ukraynanın torpaq bütövlüyünə qarşı olan yanaşması olduqca konkretdir. Türkiyə Respublikası Prezident Rəcəb Tayyip Ərdoğan Rusiya-Ukrayna gərginliyinin artmağa başladığı günlərdə Ukraynanın Baş naziri V. Zelenski ilə görüşündən sonra Ukraynanın ərazi bütövlüyünə hörmət edilməli olduğunu bildirərək Türkiyənin hadisəyə münasibətini açıq şəkildə ifadə etdi. Eyni zamanda Türkiyə Xarici İşlər Nazirliyi öz rəsmi saytında Türkiyənin Ukraynanın ərazi bütövlüyünü qoruyan tərəf olduğunu və Krımın ilhaqını tanımadığını bildirir[13]. Baş verən proseslərin əvvəlindən izlədiyi balanslaşdırılmış siyasəti nəticəsində Türkiyə həm Ukrayna, həm də Rusiya üçün vasitəçi rolunu oynamağa ideal namizəd ölkəyə çevrildi. Nəticədə ölkələr arasında yüksək səviyyəli danışıqlar üçün ilk yer Antalya seçildi və Ukrayna xarici işlər naziri Dmitro Kuleba və Rusiya xarici işlər naziri Sergey Lavrov 10 mart 2022-ci ildə Türkiyənin ev sahibliyi ilə görüşdülər. 2022-ci il martın 29-da yenidən Türkiyənin ev sahibliyi ilə İstanbulda Rusiya və Ukrayna nümayəndə heyətlərinin iki günlük görüşləri baş tutdu və danışıqların sonunda Ukrayna nümayəndə heyətinin üzvü David Georgiyeviç bəyan etdi ki, Türkiyə Ukraynanın hüquqlarına zəmanət tələb etdiyi 8 ölkədən biridir. Türkiyə indiki vəziyyətdə hələ də iki ölkə arasında sülhün bərqərar olması, ölkələrin ərazi bütövlüyü və buna paralel olaraq balanslaşdırılmış siyasət yanaşması ilə hərəkət edir. Türkiyə Xəzər dənizi ilə Balkanlar arasında təbii qazın daşınması,

İraq neftinin Aralıq dənizinə çatdırılması, Rusiyadakı enerji mənbələrinin Qara dəniz vasitəsi ilə daşınması baxımından mühüm nöqtədədir. Rusiya-Ukrayna müharibəsi Türkiyənin enerji daşınma yolları çərçivəsində geostrateji əhəmiyyətini daha da artırdı. Bu vəziyyətin Türkiyənin gələcəkdə meydana çıxa biləcək yeni regional enerji kompleksinin mərkəzinə çevrilməsini söyləmək mümkündür.

Rusiya-Ukrayna müharibəsi təkcə Ukraynanın təhlükəsizliyi üçün problem yaratmadı. Bu, bəzi Baltikyanı ölkələrin oxşar aqibətlə bağlı narahatlığını daha da artırdı və bu ölkələri NATO-ya üzvlük üçün müraciət etməyə sövq etdi. NATO-ya üzvlük 7 addımdan ibarət çox uzun bir prosesdir və bütün 30 üzv ölkə üzvlük üçün müraciət edən ölkənin üzvlüyünü təsdiq etməlidir, yalnız bundan sonra NATO-ya tamhüquqlu üzv olaraq seçilir [3. səh, 517]. Rusiya-Ukrayna müharibəsi, şübhəsiz ki, bir çox fərqli iqtisadi hadisələrlə nəticələndi. Bunlardan ən önəmlisi Avropa Birliyi ölkələrinin, xüsusilə də Rusiyanın ən böyük ixrac məhsulu olan enerji məhsullarına tətbiq etdiyi məhdudiyyətlər və sanksiyalardır. Müharibənin iqtisadi nəticələri ilə bağlı Türkiyənin üzərinə götürə biləcəyi ən mühüm iqtisadi rollardan biri bu başlıq altında ortaya çıxır. Avropa ilə Rusiya arasında təhlükəsizliyin əsas elementlərindən biri kimi enerji münasibətləri çıxış edir. Avropa xarici enerjidən asılıdır və istifadə etdiyi böyük bir hissəsini idxal edir, bu da gündə təxminəm 1 milyard avrodan çox vəsait tələb edir [10. səh, 1737]. Yeni enerji komplekslərinin yaradılması üçün ortaya çıxan axtarışlar arasında Avropa İttifaqı üçün ən vacib variantlardan biri Xəzər təbii qazına çıxışdır və Azərbaycan burada vacib rol oynayır. Beləliklə, Rusiya qazına alternativ istehsal etmək mümkün olacaq. Bundan əlavə, Avropanın Xəzər qazına çıxışının artırılması da Rusiya qazına qarşı rəqabət mühiti yarada bilər. Bu məqamda Türkiyənin geostrateji mövqeyinin əhəmiyyəti də ortaya çıxır, çünki Türkiyə bu alternativ yolların keçə biləcəyi ən mühüm ölkədir. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, Türkiyə, Avropa İttifaqı və Xəzər regionu arasında yeni enerji kompleksinin yarana və bu, Türkiyənin müharibə prosesində ən vacib iqtisadi rolu olmasına gətirib çıxaracaq. Bu baxımdan, Avropa İttifaqı Türkiyənin Xəzərə, Yaxın Şərqə və digər Cənub və Şərq resurslarına çıxışı olan və qazın Qərbə transfer oluna biləcəyi marşrutda əsas rol oynamasını istəyir [9, səh, 58]. Rusiya-Ukrayna müharibəsi regional böhran olmağı aydındır. Ən qorxulu ssenari də vəziyyətin qlobal böhrana çevrilməsi ehtimalı var. Türkiyə özünün təhlükəsizlik problemlərini həll etmək, Avropa İttifaqı üçün yeni enerji transfer mərkəzi olmaq və regional diplomatik təsirini artırmaq üçün müəyyən nailiyyətlər əldə edə biləcək imkanlarla qarşılaşır. Digər tərəfdən, müharibə səbəbindən Türkiyə bu ölkələrdən idxal edilən bəzi məhsullara çıxışda problemlər yaşayır və regional qeyri-sabitlik səbəbindən iqtisadi itkilərə məruz qalır. Ona görə də hadisəni təkcə böhran-imkan pəncərəsindən deyil, imkanlar və təhdidlər arasında balansın zəruriliyi prizmasından qiymətləndirmək lazımdır. Başqa sözlə desək, təhdidlərə qarşı lazımi tədbirlərin görülməsi Türkiyə üçün vacib əhəmiyyət daşıyır. Ukraynanın ərazi bütövlüyü Türkiyə tərəfindən diplomatik dillə müdafiə edilərək, Krımın ilhaqına qarşı çıxaraq, bölgədə beynəlxalq hüquq normalarına uyğun hərəkət edən ölkə olaraq qalmağa davam edir və beynəlxalq birliyin etibarlı üzvü kimi mövqeyini qoruyub saxlayır [11 səh. 18]. Türkiyənin Rusiya-Ukrayna müharibəsi zamanı nüfuzunu göstərməsinin başqa bir göstəricisi də Türkiyənin Rusiyanın Ukraynaya hücumunu müharibə kimi qələmə verməsi və Montrö Boğazları Konvensiyası çərçivəsində Boğazları müharibənin iştirakçısı olan ölkələrin hərbi gəmilərinin istifadəsinə bağlamasıdır. Bir çox mətbuat orqanlarında bu qərarı Ukraynanın tələbi ilə alındığı deyilsə də bu qərarın Ankara vəziyyətin müharibə olaraq təyin olunması ilə bağlı olduğunu bildirib. Türkiyə Krım münqişəsi zamanıda Ukrayna rəsmiləri ilə görüşmüşdür. O vaxtkı xarici işlər naziri Əhməd Davudoğlunun 28 fevral-1 mart 2014-cü il tarixləri arasında Ukraynaya səfəri zamanı Türkiyənin Krımla bağlı hər cür yardıma hazır olduğunu vurğulamışdı. 2014-cü il iyulun 17-18-də Ukraynaya gedərək o zamankı Türkiyənin Avropa İttifaqı işləri üzrə naziri Mövlud Çavuşoğlu Ukrayna prezidenti Petro Poroşenko və xarici işlər naziri Pavlo Klimkin ilə görüşüb. Bu görüşlərdən sonra Çavuşoğlu 2014-cü ilin sentyabrında Krımda keçirilən seçkilərin Türkiyə tərəfindən tanınmadığını bildirib. Bu dövrdə Türkiyə tez-tez, xüsusi ilə Ukraynanın ərazi bütövlüyünü vurğuladı və Krım tatarlarına dəstək mesajı verdi. Türkiyənin bu münasibəti Ukrayna hökuməti tərəfindən olduqca yaxşı qarşılandı. Digər tərəfdən, bu dövrdə Ankara ilə Moskva arasında Suriya siyasətlərinə görə siyasi və hərbi gərginlik ön plana çıxmışdı. 24 noyabr 2015-ci ildə Türkiyənin hava məkanını pozan Rusiyaya məxsus SU-24 tipli döyüş təyyarəsi Türkiyənin F-16 təyyarəsi tərəfindən vurulmuş, iki dövlət arasında gərginlik olduqca artmışdı [11, səh. 17].

2022-ci ildən etibarən isə normallaşan münasibətlərdən sonra Türkiyə müharibə tərəfləri arasında vasitəçi ölkə kimi fəaliyyət göstərməyə başladı. Qərblə Rusiya arasında sərt müzakirələr və gərgin münasi-

bətlər yaşansa da, Türkiyə Rusiya ilə açıq dialoqları olan bir aktor kimi vasitəçilik proseslərində güclü mövqe nümayiş etdirir. Türkiyənin Kiyev və Moskva arasındakı gərginliyin aradan qaldırılmasında vasitəçilik etmək niyyətini prezident, diplomatik nümayəndələri və prezidentin sözçüsü tərəfindən qətiyyətlə açıqlanıb. Bu hadisələrdən sonra Türkiyə tərəflərin tələbi ilə iki dəfə Rusiya və Ukrayna nümayəndələrini bir araya gətirdi. İlk olaraq Antalya Diplomatik Forumunda Rusiyanın xarici işlər naziri Sergey Lavrov və ukraynalı həmkarı Dmitro Kuleba Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun müşayiəti ilə görüş keçirdi və müzakirələr apardı. İkincisi isə 29 mart 2022-ci il tarixində Rusiya və Ukrayna nümayəndə heyətləri Prezident Dolmabahçe İş Ofisində görüş keçirdilər. Bu görüşdə Ukrayna rəsmiləri Türkiyəni diplomatik həll üçün çalışma prosesində qarant dövlətlərdən biri kimi görmək istədiklərini təkrar bildirdilər. Ancaq Rusiyanın Türkiyə ilə əlaqədar bəzi narahatlıqları da var idi. Çünki münaqişə başladığı gündən etibarən Türkiyə Ukraynanın ərazi bütövlüyünü dəstəkləyirdi. Digər tərəfdən, müharibə şərtlərinə baxmayaraq, Kiyev və Ankara arasında ticarət, sosial-mədəni və hərbi məsələlərdə mühüm əməkdaşlıqlar mövcud idi. Türkiyənin müdafiə sənayesinin ən diqqət çəkən məhsullarından biri olan Bayraktar TB2 PUA-ları 2019-cu ildən etibarən Ukrayna ordusunun inventarına daxil olmağa başlamışdı. Hətta sonradan Türkiyə bu PUA-ları Ukraynaya bağışladı. Hava döyüşlərində Rusiyanın üstünlüyünə baxmayaraq, Ukrayna Bayraktar TB2 PUA-ları sayəsində ruslara qarşı ciddi uğur qazandı.

Rusiya Türkiyənin Ukrayna və Qərb ilə yaxınlığından narahat olsa da, Ukraynada apardığı siyasətə görə beynəlxalq aləmdə müttəfiqsiz qalmaqdan da çəkinmişdir. Rusiyanın Türkiyə ilə əməkdaşlığı və Taxıl Dəhlizi Sazişinin həyata keçirilməsi həm müharibə edən tərəflər, həm də dünya ərzaq təhlükəsizliyi üçün çox vacib hadisə hesab olunur [1]. Məlumdur ki, Rusiya və Ukrayna dünyanın ən mühüm taxıl və gübrə ixracatçılarıdır. Bu iki ölkə arasında müharibənin başlaması və daha sonra dənizdə taxıl ixracı yollarının bağlanması həm müharibə tərəflərinə, həm də bu ölkələrdən taxıl idxal edən ölkələrin həyatına və iqtisadiyyatına mənfi təsir göstərdi. Xüsusən də ərzaq təhlükəsizliyi baxımından onsuz da pis vəziyyətdə olan Afrikanın bəzi əyalətlərində taxıl daşınmasının kəsilməsi ilə vəziyyət ağır həddə çatdı. Qlobal ərzaq qiymətlərinin həddindən artıq artması ilə əlaqədar olaraq Türkiyə və BMT-nin təşəbbüsləri nəticəsində Rusiya və Ukrayna 22 iyul 2022-ci il tarixində ictimaiyyət qarşısında ayrı-ayrılıqda “Qara Dəniz Taxıl Dəhlizi Sazişi” imzaladılar [4, səh. 2217]. Taxıl Sazişi, taxılın, qida məhsullarının və gübrələrin müharibə səbəbi ilə bağlanmış və taxıl daşınması məhdudlaşmış limanlardan təhlükəsiz şəkildə təyinat yerinə çatmasını təmin etmək məqsədi ilə imzalanmışdı. Taxıl Sazişi imzalanmamışdan əvvəl Ukrayna rəhbərliyi Rusiyanın kənd təsərrüfatı məhsullarının müqavilənin əhatə dairəsinə daxil edilməsinə etiraz etsə də, müqavilədə bu məhsullar da qeyd olunmuşdu. Taxıl Sazişindən sonra Rusiya ərzaq məhsulları və gübrələrinin beynəlxalq bazarlara çatdırılması üçün BMT ilə Rusiya arasında daha bir anlaşma memorandumu imzalandı. Qərargahı İstanbulda yerləşən Birgə Koordinasiya Mərkəzinin hesabatlarına görə, Taxıl Sazişinə uyğun olaraq 2022-ci ilin iyulundan 2023-cü ilin iyuluna qədər dünya bazarlarına 32 milyon tondan çox taxıl daşındı və bununla da beynəlxalq ərzaq qiymətləri əvvəlki qiymətə düşdü. Müqavilə müddətinin başa çatması ilə əlaqədar olaraq müqavilənin müddəti bir neçə dəfə uzadıldı. Lakin 2023-cü ilin iyulunda Rusiya ərzaq məhsullarının satışına qarşı olan maneələr aradan qaldırılmadığına görə sazişdən çıxdığını bəyan etdi. Bu bəyanatdan sonra prezident Rəcəb Tayyib Ərdoğan Putinlə görüşərək Rusiyanı Taxıl Sazişini davam etdirməyə razı salmağa çalışıb. Çünki bu vəziyyət ən çox Afrika ölkələrini ağır vəziyyətdə qoyacaqdı. 27-28 iyul 2023-cü il tarixlərində Sankt-Peterburqda "II Rusiya-Afrika Sammiti" keçirildi. Putin Afrika dövlətləri ilə əlaqələrini gücləndirmək və Taxıl Müqaviləsi ilə bağlı narahatlıqları aradan qaldırmaq üçün sammit iştirakçılarına taxıl qrantları vəd etdi. Sammitdə Rusiya rəsmiləri artıq ərzaq çatışmazlığı yaşayan Burkina Faso, Mali, Mərkəzi Afrika Respublikası, Eritreya, Somali və Zimbabveyə 25 ilə 50 min ton arasında dəyişən pulsuz taxıl göndərəcəyini vəd etdi. Türkiyə Rusiya-Ukrayna müharibəsini sülh yolu ilə sonlandırmaq və müharibənin beynəlxalq təsirlərini azaltmaq üçün fəal təşəbbüs göstərən mühüm bir aktor kimi ortaya çıxdı. Digər tərəfdən, dərin tarixi, mədəni və siyasi əlaqələri olan Ukrayna ilə müharibə şəraitində olmasına baxmayaraq, əməkdaşlığı gücləndirdi. 2023-cü il 8 dekabr tarixində Ukraynanın Ankaradakı səfirliyi və Türkiyə-Ukrayna Dostluq Dərnəyi tərəfindən Türkiyə Cümhuriyyətinin yaranmasının 100 illiyi və Ukraynanın müstəqilliyinin 32-ci ildönümü münasibətilə ziyafət təşkil etdi. Bu ziyafətdə çıxış edən Ukraynanın Ankaradakı səfiri Türkiyəni strateji tərəfdaş kimi qeyd edib və göstərdikləri dəstəyə və yardıma görə minnətdarlığını bildirdi. Bu görüşdə səfir Bodnar Türkiyəni də müharibənin dayandırılmasında, sülh və sabitliyin bərpasında mühüm tərəfdaş kimi

tanıdığını bildirdi [12]. Bu vəziyyət bir daha Türkiyənin beynəlxalq siyasətdəki əhəmiyyətini vurğulayaraq, Rusiya-Ukrayna müharibəsini əsas götürərək beynəlxalq sülhün təmin edilməsində nə qədər vacib olduğunu vurğuladı.

**Nəticə**

2014-cü ildə başlayan və 2022-ci ildə əhatə dairəsini genişləndirən Rusiya-Ukrayna müharibəsi beynəlxalq arenada geniş təsirlərə səbəb oldu. Bu proses qlobal və regional təhlükəsizlik balansını dəyişərək Qərb-Rusiya münasibətlərini gərginləşdirdi. Yaranan beynəlxalq konyunktura "soyuq müharibə" atmosferini yada salırdı. Rusiyanın Krımı ilhaq etməsi və Ukraynanın şərqindəki separatçı mübarizə bir çox aktorlar tərəfindən beynəlxalq hüquqa zidd hərəkət kimi tanındı. Aİ, NATO, BMT kimi təşkilatların Moskva əleyhinə qərarları beynəlxalq səviyyədə diplomatik gərginliyə səbəb oldu. Avropa İttifaqı və Birləşmiş Millətlər Təşkilatı Rusiyaya qarşı sanksiya qərarları qəbul etdi. Bu bitməyən müharibə qlobal bazarda enerji təhlükəsizliyi və ərzaq qiymətləri ilə bağlı qeyri-stabilliyi artırdı. Rusiya-Ukrayna müharibəsi beynəlxalq təşkilatların və strateji ittifaqların yenidən nəzərdən keçirilməsinə, bəzi dövlətlər tərəfindən yeni hərbi doktrinaların yaradılmasına, qlobal təhlükəsizlik paradiqmasının yenidən qiymətləndirilməsinə səbəb oldu və beynəlxalq münasibətlərə böyük təsir göstərdi. Rusiya-Ukrayna müharibəsi qlobal təsirləri ilə yanaşı, Türkiyə-Ukrayna, Azərbaycan-Ukrayna münasibətlərinə də bir çox cəhətdən əks olundu. Azərbaycan və Türkiyə ilə Ukrayna arasında münasibətlərin tarixi bağlar, ortaq maraqlar, regional ortaq təhlükəsizlik ticarət əlaqələrinin, beynəlxalq hüquq normalarının qorunması öz əksini tapdı. Həm Türkiyə, həm də Azərbaycan Rusiya-Ukrayna müharibəsində balanslaşdırılmış mövqedən strategiya və xarici siyasət yürüdür. Hər iki ölkənin əsas prioriteti diplomatik səyləri Ukraynanın ərazi bütövlüyü və siyasi suverenliyini vurğulayaraq regional sülh və sabitliyin qorunmasını hədəfləməkdir. Azərbaycan və Ukrayna rəsmi olaraq bir-birini strateji tərəfdaş hesab edir və bir-birinin ərazi bütövlüyünü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını dəstəkləyirlər. Bu müharibənin həm Azərbaycan həm də beynəlxalq aləmdə iqtisadi nəticələri də oldu. Xüsusilə qlobal iqtisadiyyatın hələ də COVİD-19-un təsirləri ilə mübarizə apardığı bir dövrdə Rusiya-Ukrayna müharibəsi qlobal iqtisadiyyata daha da ziyan vurdu. Ən mühüm nəticələrdən biri enerji, mədən və ərzaq, xüsusilə buğda kimi strateji ərzaq məhsullarının qiymətlərində baş verən qeyri-stabillik oldu və qaçınılmaz qlobal ərzaq böhranı ehtimalını artırdı. Rusiya dünyanın əsas təbii qaz ixracatçısı və ikinci ən böyük xam neft ixracatçısıdır. Beynəlxalq sferada təbii qaz ixracının təxminən 25%-i, kömür ixracının 18%-i və beynəlxalq xam neft ixracının 11%-i Rusiyanın payına düşür. Buna görə də mümkün risklər bu malların tədarükünün kəskin azalmasına gətirib çıxara bilər, nəticədə tikinti, sənaye və nəqliyyatda fasilələr yaranması ehtimalı yüksəlir. Ukrayna da öz növbəsində dünya ərzaq bazarlarında mühüm rol oynayır. Ukrayna və Rusiya dünya üzrə arpa ixracının 23%-ni, buğda ixracının 27%-ni və qarğıdalı ixracının 15%-ni təşkil edən mühüm ərzaq istehsalçılarıdır. Dünyada taxıl ticarətinin təxminən 19%-i Rusiya və Ukraynadan ixrac edilir. Münaqişə göstərdi ki, regional qeyri-sabitlik beynəlxalq miqyasda ticarət əlaqələrinə, enerji bazarlarına və maliyyə sabitliyinə təsir edir. Tədqiqat siyasi ittifaqların dinamikasının başa düşülməsinin, regional təhlükəsizliyə təsir edən təsirlərin başa düşülməsinin və qlobal sabitliyə təsirlərinin başa düşülməsinin önəmini vurğulayır. Rusiya-Ukrayna müharibəsi "Soyuq müharibə"nin bitməsindən sonra Avropa və dünya təhlükəsizliyində ən ciddi böhran təşkil edən və gələcəkdə qlobal təhlükəsizlik və sülh üçün ciddi nəticələr yarada biləcək bir hadisə oldu.

Müharibənin Mərkəzi Asiya ölkələrinin iqtisadiyyatına da öz təsirini etdiyini nəzərə alsaq (Qazaxıstan və Türkmənistan təbii sərvətlərə malik olsa da, Özbəkistan, Qırğızıstan və Tacikistan kifayət qədər təbii sərvətlərə malik deyil), bu ölkələrdən təxminən 8 milyon insan Rusiyada işləyir və valyuta köçürmələri həyata keçirir. Məhz müharibənin doğurduğu kəskin vəziyyətə görə bu işçi axını üzünü Rusiyadan Çinə çevirə bilər. Bu proses qlobal geosiyasi qarşıdurmanı gücləndirə biləcək amilə çevrilə bilər. Rusiya-Ukrayna müharibəsi Avropa İttifaqında iqtisadi və digər sahələrdə fəaliyyətin ləngiməsinin ən mühüm səbəblərindən biri hesab olunur. 2022-ci ildə Avrozonada inflyasiya səviyyəsi təxminən 10%-ə çatmışdır və bu nisbət Aİ-nin ən yüksək nisbət dərəcəsi olaraq göstərilir. Aİ-yə üzv ölkələrin Rusiyaya qarşı sanksiyalar tətbiq etməsi ittifaqın üzv hökumətlərinin iqtisadi fəaliyyətinə də böyük itkilər yaşadır. Beynəlxalq Valyuta Fondunun (BVF) hesabatına görə, Avropa zonası üçün 2023-cü ildə artım tempinin 0,5, inflyasiyanın isə 5,7% olacağı proqnozlaşdırırdı. Rusiya-Ukrayna müharibəsində ABŞ və Qərb dünyası tərəfindən Rusiyaya qarşı çoxsaylı sanksiyaların tətbiqi Rusiya iqtisadiyyatına da sözsüz ki, ağır təsirlər etdi. Buna baxmayaraq, Rusiyanın sanksiyalara qarşı yürütdüyü siyasət sayəsində bu mənfi təsirlər müstəqil beynəlxalq təşkilatlar və iqtisadçıların proqnozlaşdırdığı

mənfi təsirlərdən xeyli az oldu. Rusiya ABŞ və Qərb dövlətlərinin tətbiq etdiyi ağır sanksiyaların şokunu qısa müddətdə minimuma endirməyi bacarmışdı. Rusiya bu sanksiyalardan xilas olmaq üçün çox vacib bir siyasi manevr etdi. Xüsusən də Avropanın Rusiya qazı və neftinə qoyduğu məhdudiyyətlərdən sonra Rusiyanın Çin Xalq Respublikası və Hindistana üz tutması böyük sarsıntının aradan qaldırılmasında ən əhəmiyyətli amil oldu. Bu dövlətlərin Rusiyadan idxal etdiyi neftin miqdarı sutkada 1,5 milyon barrelə çatdı. Hindistan və Çindən sonra Türkiyə və Bolqarıstan Rusiya xam neftinin ən böyük alıcıları sırasında oldular. Xüsusilə Türkiyənin sanksiyalara qatılmaması və neytral siyasətləri nəticəsində hər iki ölkə ilə ticarət həcmi əvvəlkinə nisbətən daha da artdı. Bundan öncədə qeyd etdiyim kimi, Türkiyə xüsusilə Rusiya və Ukraynanın yaşadığı taxıl böhranında mühüm rolu öz üzərinə götürərək beynəlxalq aləmdə nüfuzlu mövqeyini daha da gücləndirmişdir.

Rusiyanın Ukraynaya qarşı müharibəyə başlaması qonşu regionlarda, o cümlədən Cənubi Qafqaz ölkələrində həyəcan siqnallarına səbəb oldu. Cənubi Qafqaz regionundakı digər iki ölkədən fərqli olaraq Azərbaycan iqtisadi müstəqilliyi, xarici siyasətə ənənəvi balanslaşdırılmış siyasəti və NATO üzvü Türkiyə ilə möhkəmlənən strateji müttəfiqliyi sayəsində daha azad siyasət həyata keçirdi. Hətta Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 2022-ci il yanvar ayının 14-də Ukrayna Prezidenti Volodimir Zelenskinin dəvəti ilə Ukraynaya işgüzar səfər etmişdir. Həmin gün Kiyevdə ölkələrin geniş tərkibdə görüşü baş tutdu və görüş bitdikdən dövlətlər arasında sənədlər də imzalandı. Həmin görüşdə həmçinin gələcək əməkdaşlıq perspektivləri də müzakirə olundu. Bütün bu hadisələr Azərbaycanın Ukraynaya olan yaxın münasibətinin sübutudur [8].

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Acer, Y. Rusya'nın Tutumu ve Tahıl Koridoru Antlaşması'nın Geleceği: [Elektron resurs] / Kriter Jurnalı – Sentyabr 1, 2023. URL: https://kriterdergi.com/dis-politika/rusyanin-tutumu-ve-tahil-koridoru-antlasmasinin-gelecegi*

2. *Aydın, M. Daşdəmirova, M. Rusya Ukrayna savaşından sonra Azerbaycan ve Avrupa Birliği arasındaki enerji odaklı ilişkiler // – İstanbul: Diplomatik ilişkiler ve politik araşdırmalar Merkezi, – 2023 №16 – s. 1-6.*

3. *Baltacı, A. Rusya Ukrayna savaşı kapsamında Türkiyenin siyasi ve ekonomik rolü // Intertional Congress on social sciences, China to Adriatic-XVI , – Ankara: IKSAD Global, – İyun, 7, 2022, – 2022, – s. 517-525.*

4. *Bayazıt, A. Karadeniz Tahıl Koridoru Anlaşmasının Uluslararası Ticaret Açısından Değerlendirilmesi / Bayazıt, A., Gürbüzer, G. B. Karadeniz // Akademik Tarih ve Düşünce Jurnalı , – Ankara: – 2023. №10, – s. 2215-2235. (2217)*

5. *Çelikaslan, M.N. Ukraine-Russia War: Destruction of An European Nation // – Adana: Türk Yönetim ve Ekonomi Araştırmaları Jurnalı, – 2022 №3 – s. 53-63.*

6. *Çetin, Ş. BM Genel Kurulu, Rusya'ya Ukrayna'dan hemen çekilme çağrısı yapan karar tasarısını kabul etti: [Elekrton resurs] / Anadolu Agentliyi – Ankara, 23.02.2023. – URL: https://www.aa.com.tr/tr/dunya/bm-genel-kurulu-rusyaya-ukraynadan-hemen-cekilme-cagrisi-yapan-karar-tasarisini-kabul-etti/2829599*

7. *Çınar, H.Y. Rusya-Ukrayna savaşinin Türkiye-Ukrayna ilişkilerine izdüşümü: Fırsatlar ve krizler// – İstanbul Kent Üniversitesi İnsan ve Toplum Bilimleri Jurnalı, – 2024 №1 – s. 17-28(22).*

8. *İlham Əliyevin Ukraynaya işgüzar səfəri: [Elektron resurs] / Prezident.az – Yanvar 14, 2022. URL: https://president.az/az/articles/view/55265*

9. *Kotenko, O. Changer and Changes on the European Energy Market After the Ukrainian Crisis // – Varşava: East European Scientific Journal, – 2021 №66 – s. 57-60.*

10. *Matsumotoa, K. Historical energy security performance in EU countries / K. Matsumotoa, M. Doumpos, K. Andriosopoulos // Renewable and Sustainable Energy Reviews , – Amsterdam: – 2018. №82, – s. 1737-1748.*

11. *Oktav, Ö.Z. Ukrayna Savaşı'nın Türkiye-Rusya ilişkilerine olası etkileri: Fırsatlar ve krizler// – İstanbul: Bilge Strateji Jurnalı, – 2022 №13 – s. 17-22.*

12. *Türkiye-Ukrayna İşbirliği İçin Öncelikler ve Yenileşme Perspektifleri: [Elektron resurs] / Xəbər Mərkəzi – İyun 12, 2023. URL: https://www.qha.com.tr/gundem/ankara-da-turkiye-ukrayna-isbirligi-icin-oncelikler-ve-yenilesme-perspektifleri-konferansi-ve-resepsiyonu-482428*

13. *Ukrayna'nın Siyasi Görünümü: [Elektron resurs] / Türkiyə Xarici İşlər Nazirliyi – May 19, 2022. URL: https://www.mfa.gov.tr/ukrayna-siyasi-gorunumu.tr.mfa*

14. *Ukraynaya humanitar yardım göstərilməsi məqsədilə Azərbaycan Respublikasının Energetika Nazirliyinə vəsait ayrılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: [Elektron resurs] / Prezident.az – İyul 17, 2023. URL: https://president.az/az/articles/view/60473*

**XÜLASƏ**

Rusiya-Ukrayna arasında olan müharibənin və onun doğurduğu nəticələrin ölkəmiz və region ölkələri üçün olan təsirlərinin tədqiq olunması əhəmiyyətli haldır. Xüsusilə Azərbaycan Respublikası və tarixi köklərlə bağlı olduğumuz Türkiyə Respublikasının bu müharibədə tutduğu mövqe və reallaşdırdıqları siyasi-iqtisadi strategiyaların təhlili vacibdir. Həmçinin müharibənin hansı səbəblərdən baş verməsi və müharibə dövründə həm iki ölkə arasında, həm də beynəlxalq müstəvidə baş verən hadisələri araşdırmaq önəmlidir. Bu müharibənin ölkəmiz üçün siyasi-iqtisadi, sosial, təhlükəsizlik, ticarət, beynəlxalq logistika və s. nöqteyi-nəzərdən necə təsir etdiyi təhlil olunmuşdur. Həmçinin BMT, NATO, Aİ və digər beynəlxalq təşkilatların bu hadisədə tutduğu mövqe və atdıqları addımlar öyrənilmişdir. Ukraynada baş verən tarixi proseslər və bu hadisələrdən yaranan nəticələr həm dünya, həm də ölkəmizin siyasi baxış bucağını və bu müharibədə hansı stategiyanı apardığını göstərmişdir.


**Açar sözlər:** *Azərbaycan, Türkiyə, Rusiya-Ukrayna, müharibə, beynəlxalq.*


**Gurbanov Rauf Rafail**
***Doctoral student of the Department of History of Slavic Countries, Baku State University***
***E-mail: qurbanovrauf7@gmail.com***


**POLITICAL STRATEGIES OF THE REPUBLIC OF AZERBAIJAN AND TURKEY IN THE RUSSIA-UKRAINE WAR**


**SUMMARY**

It is important to study the effects of the war between Russia and Ukraine and the consequences of the war for our country and the countries of the region. In particular, it is important to analyze the position of the Republic of Azerbaijan and the Republic of Turkey in this war, and the political and economic strategies they implemented. It is also important to investigate the reasons for the war and the events that took place both between the two countries and at the international level during the war. Political-economical, social, security, trade, international logistics, etc. consequences of this war for our country. how it affects from the point of view was analyzed. Also, the position and steps taken by UN, NATO, EU and other international organizations in this incident were studied. The historical processes that took place in Ukraine and the results of these events have shown both the world and the political point of view of our country and what strategy it is pursuing in this war.


**Keywords:** *Azerbaijan, Turkey, Russia-Ukraine, war, international.*


**Гурбанов Рауф Рафаил**
***Докторант кафедры истории Славянских стран Бакинского Государственного Университета***
***E-mail: qurbanovrauf7@gmail.com***


**ПОЛИТИЧЕСКИЕ СТРАТЕГИИ АЗЕРБАЙДЖАНСКОЙ И ТУРЦИИ РЕСПУБЛИКИ В РОССИЙСКО-УКРАИНСКОЙ ВОЙНЕ**


**РЕЗЮМЕ**

Важно изучить последствия войны между Россией и Украиной и последствия войны для нашей страны и стран региона. В частности, важно проанализировать позицию Азербайджанской Республики и Турецкой Республики в этой войне, а также реализованные ими политические и экономические стратегии. Также важно исследовать причины войны и события, произошедшие как между двумя странами, так и на международном уровне во время войны. Политико-экономические, социальные, безопасность, торговля, международная логистика и т.д. Было проанализорано последствия этой войны для нашей страны. Также изучена позиция и шаги, предпринятые ООН, НАТО, ЕС и другими международными организациями в связи с данным инцидентом. Исторические процессы, которые происходили на Украине, и результаты этих событий показали как миру, так и политическую точку зрения нашей страны и какую стратегию она проводит в этой войне.


**Ключевые слова:** *Азербайджан, Турция, Россия-Украина, война, интернациональная.*